

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 70 (23.232)

*17 aprel 2019-cu il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğulayıb.

Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz Türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırıb. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayıb.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzulayıb və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini deyib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Aprelin 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti ilə görüşüb.

Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu ifadə etmiş, Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı tərəfindən muxtar respublikada həyata keçirilən layihələrin uğurlu olduğunu bildirmişdir. 2019-cu ilin Naxçıvanda "Ailə təsərrüfatları ili" elan olunduğunu və muxtar respublikada mindən artıq ailə təsərrüfatının fəaliyyət göstərdiyini bildirən Ali Məclisin Sədri bu sahənin inkişafı ilə bağlı görülən işləri diqqətə çatdırmış, "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" tədbirin də ailə təsərrüfatlarına dəstək xarakteri daşıdığını qeyd etmişdir.

Ali Məclisin Sədri tədbirin təşəbbüskarlarına təşəkkür etmiş və əməkdaşlığın davam etdirilməsinin məmnunluqla qarşılandığını bildirmişdir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş, ötən il Naxçıvanda "Avropa şəhərciyi"nin açılışını məmnunluqla xatırlatmışdır. Naxçıvanda keçiriləcək "Kətə" festivalında iştirak edəcəklərini bildirən və bunu yüksək dəyərləndirən qonaq muxtar respublikada ailə təsərrüfatlarının inkişafının, festivalın və keçirəcəkləri tədbirin qadınların cəmiyyətdəki yerinin müəyyənləşdirilməsi işinə töhfə verəcəyini bildirmişdir.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti təmsil etdiyi təşkilatla muxtar respublika arasındakı əlaqələrə diqqəti çəkmiş, mövcud əməkdaşlıq imkanlarını dəyərləndirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Layihənin açılış konfransı olub

*Aprelin 16-da Naxçıvan Biznes Mərkəzində Avropa İttifaqının maliyyələşdirdiyi "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsinin açılış konfransı olub.*

Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Baş Nazirinin müavini və maliyyə naziri Səbuhi Məmmədov bildirib ki, BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi də daxil olmaqla, Avropa İttifaqının maliyyələşdirdiyi "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi muxtar respublikanın qadın sakinlərinin maliyyə savadlılığının və idarəetmə vərdişlərinin yüksəldilməsinə, eyni zamanda gəlir mənbələri qismən məhdud olan qadınların sahibkarlıq fəaliyyətinə təşviq edilməsinə xidmət edir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında gender bərabərliyinə xüsusi önəm verilir. Qadınların cəmiyyətdə mövqeləri möhkəmləndirilir, dövlət idarəçiliyində qadınların təmsilçiliyi və vəzifələrə irəli çəkilməsi təmin edilir. Muxtar respublikada kiçik və orta sahibkarlara, o cümlədən qadın sahibkarlara güclü dövlət dəstəyi göstərilir, qadınların ilkin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, yeni iş yerlərinin yaradılması istiqamətində tədbirlər həyata keçirilir. Bu tədbirlərin məntiqi nəticəsidir ki, qadınların sahibkarlıq fəaliyyətinə marağı artır və onlar





ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalında əhəmiyyətli dərəcədə iştirak edirlər. Diqqətə çatdırılıb ki, hazırda muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə yanaşı, ailə təsərrüfatları kimi dövlət qeydiyyatına alınan 1022 təsərrüfatdan 177-si qadınlar tərəfindən idarə olunur. Qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması, onların investisiya layihələrinin reallaşdırılmasına dövlət dəstəyinin göstərilməsi, güzəştli şərtlərlə kreditlər verilməsi yolu ilə maliyyə çətinliklərinin həlli və istehsalın stimullaşdırılması həyata keçirilir. Belə ki, 2017-2018-ci illərdə muxtar respublikada təsisçisi və sahibkarı qadın olan bir sıra sahibkarlıq subyektlərinə ilkin biznesə başlamaları və fəaliyyətlərinin genişləndirilməsi üçün 1 milyon 790 min manat məbləğində güzəştli şərtlərlə kreditlər verilib.

Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib ki, əsas icraçı tərəfdaş olan BMT-nin İnkişaf Proqramı, eləcə də Azərbaycan Mikromaliyyələşdirmə Assosiasiyası ilə birgə Avropa İttifaqının Naxçıvanda maliyyələşdirdiyi bu layihədən gözlədikləri kifayət qədər çoxdur. Maliyyə savadlılığının öyrədilməsi, biznes bacarıqlarının inkişaf etdirilməsi onların müasir cəmiyyətin inkişafına töhfə verə bilmələri üçün potensiallarını ortaya qoyacaqdır. Bu layihə çərçivəsində yaradıcılığa və ya istehsala meyilli 300-dən çox sahibkar və ya startap qadınlar keçiriləcək təlimlərə cəlb olunacaq və onlara müəyyən həcmdə sərmayə köməkliyi göstəriləcəkdir. Bu, ilk növbədə, qadınların ailə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqlarının inkişafına təkan verməklə yeni sahibkar qadınların formalaşmasına şərait yaradacaqdır. Bu yeni təşəbbüs qadınların iqtisadi səlahiyyətlərinin artırılmasına dəstək göstərəcək.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin vəzifəsini icra edən Alessandro Frakassetti qadınların sosial və iqtisadi səlahiyyətlərinin artırılmasında onların maliyyə müstəqilliyinin vacibliyini ön plana çəkib. Bildirib ki, qadınların sahibkarlığı öyrənməyə, biznes qurmağa və onu genişləndirməyə şərait yaradan yeni imkanlara çıxışını asanlaşdırmaqla ölkələr öz iqtisadi vəziyyətlərini yaxşılaşdıra bilərlər. Belə ki, qadın sahibkarların yaratdığı imkanlar daxili bazarların böyüməsinə və məşğulluq perspektivlərinin artmasına kömək edir.

Qeyd olunub ki, layihə əlilliyi olan qadınlar da daxil olmaqla, kənd icmalarından olan qadınların biznes bacarıqlarının, maliyyə savadlılığının, maliyyə resurslarına çıxışının və təşkilati bacarıqlarının yaxşılaşmasına kömək edəcək. Onlar arasından ən yaxşı biznes ideyasına malik 50 qadın Naxçıvanda və İsmayıllıda biznes fəaliyyətinə başlamaq üçün 500 ABŞ dolları məbləğində ilkin maliyyələşdirmə ilə təmin olunacaq.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədri Süleyman Kələşov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri Vüqar Abbasov tədbirdə çıxış edərək layihənin əhəmiyyətindən, qadınların sahibkarlıq fəaliyyətindəki rolundan bəhs ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının 2018-ci il sosial-iqtisadi inkişafının yekunlarına dair videoçarx nümayiş olunub. Sonra "Qadınların Davamlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi üzrə Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmovanın təqdimatı olub.

Həmin gün sahibkar qadınlarla və sağlamlıq imkanları məhdud Zuriyyə Musayeva ilə görüş keçirilib.

**✍ Əli CABBAROV**

# “Kətə” festivalı böyük maraqla qarşılanıb



***Gözəlliklər məskəni, oğuz yurdu Naxçıvan ötən hər gün daha böyük uğura imza ataraq xoşbəxt gələcəyə doğru inamlı addımlarla irəliləyir. Açılan sabah, doğan Günəş özü ilə bu qədim diyara sevinc, bərəkət, bolluq gətirir, firavan yaşayış naminə çalışan insanların arzuları, xəyalları gerçəyə çevrilir. Ötən illərdən daha sayalı, düşərli gələn 2019-cu il də ömrümüzə, günümüzə xoş anlar bəxş edir. Cari ilin “Ailə təsərrüfatları ili” elan olunduğunu nəzərə alsaq, bu sahədə bir-birini əvəzləyən əlamətdar hadisələrin, tədbirlərin keçiriləcəyi gözləniləndir və bütün bunların hər birimizin yaddaşında unudulmaz, dərin izlər buraxacağı şübhəsizdir. Artıq ötən gün bu istiqamətdə növbəti tədbirə start verildi...***

Aprel ayının 16-da şəhərimizdə əsl bayram ab-havası hökm sürürdü. Hər qarışında böyük bir tarix gizlənən Naxçıvanqala ikigünlük “Kətə” festivalının keçirilməsi münasibətilə yenə zəhmətkeş insanların yaratdığı bənzərsiz gözəlliklərlə bəzənmişdi. Onu da qeyd edək ki, Naxçıvan təbiəti min bir sərvəti, şəfalı və faydalı bitkiləri ilə burada hər fəslə, hər mövsümə uyğun zəngin mətbəx mədəniyyətinin əsasını qoymuşdur. Bu gün həmin məhsulların təbliğinə xidmət edən mövsümi festivalların keçirilməsi ənənəsinin formalaşdırılması isə əsl yurdsevərlik nümunəsidir. “Kətə”, “Göycə”, “Arıçılıq məhsulları – bal”, “Plov” kimi festivallar bunun bariz sübutudur.

Festivalda muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşiddə kətələrin hazırlanması qaydaları nümayiş olunur. Həmişə olduğu kimi, bu dəfə də muzey kompleksinin ərazisində muxtar respublikamızın rayonlarından gəlmiş festival iştirakçıları onlar üçün ayrılmış bölmələrdə öz yerlərini tutmuşdular. Eyni zamanda ictimai iaşə xidmətlərinin




təşkili də yüksək səviyyədə idi.

Tədbirin aparıcıları iştirakçıları salamladıqdan sonra bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli, “Şərur yallıları haqqında” 2018-ci il 24 dekabr tarixli sərəncamları muxtar respublikamızda milli və mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasına və təbliğinə hərtərəfli şərait yaradıb.

Aparıcılar naxçıvanlıların daha çox yaz mövsümündə hazırladıqları kətə növləri haqqında da məlumat veriblər. Qeyd olunub ki, xalqımızın qədim kulinariya mədəniyyətində mühüm yer tutan xəmir yeməkləri içərisində kətə məxsusi dadı ilə seçilir. Keçmiş dövrlərdən bu günə qədər Naxçıvanda bişirilən qarışıq göyərti, şomu, çiriş, gicitkən, mərəçiyüd, balqabaq, mərcimək, cəviz kətələri, halvalı kətə, şirin kətə, döymə kətə çox məşhur olub. Yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Muxtar respublikanın iqlim şəraiti burada müxtəlif minerallar və vitaminlərlə zəngin olan və yeyilə bilən yabanı bitkilərin yayılmasına imkan verir. Belə bitkilərdən hazırlanan kətə də insan orqanizmi üçün xeyli faydalıdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Ələkbərov çıxış edərək bu barədə ətraflı məlumat verib.

Festivala gələnlər müxtəlif çeşiddə kətələrin hazırlanması və süfrəyə təqdim olunmasını canlı olaraq izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə ediblər. Bölgələrə aid stendlərdə gətirilən məhsulların satışı təşkil olunub. Kətə hazırlamaq üçün lazımi mətbəx ləvazimatları gətirilib, ərazidə təndir qurulub.

Mütəşəkkilliyi, rəngarəngliyi ilə seçilən festivalda, əsasən, qadın təsərrüfat sahiblərinin fəallığı, çoxluğu nəzərə çarpırdı. Onlardan ***Ordubad rayonunun Vənənd kəndindən gəlmiş ailə təsərrüfatçısı Yaqut Babayeva*** deyir ki, festivala rayon ərazisindən yığılmış müxtəlif çeşiddə pencərlər, 5 kiloqram qovurma, 40 litr dovğa, 20 litr ayran çıxarıb. Onun sözlərinə görə, festivala gələnlərin mətbəximizin ləziz yemək növlərindən sayılan kətəyə marağı böyükdür. Qadın sahibkar yaradılan şəraitə və belə bir tədbirin təşkilinə görə zəhməti olan hər kəsə minnətdarlığını bildirdi.

Tədbirdə həmsöhbət olduğumuz ***Naxçıvan şəhər sakini Ramiz Əliyev*** belə mədəni tədbirlərin onlarda xoş ovqat yaratdığını deyir: Bu tədbirlərin keçirilməsi milli mətbəx nümunələrimizin tanıdılması, yaşadılması baxımından faydalıdır. Yazda Naxçıvanda ən çox bişirilən yeməklərdən biri də müxtəlif göyərti növlərindən hazırlanmış yeməklərdir. Naxçıvan təbiətinin bizə verdiyi çeşidli nemətlər süfrələrimizin bəzəyidir. Kimisi bu pencərləri qovurmaqla, kimisi kətə hazırlamaqla ondan istifadə edir. Festivalda satılan kətələrin dadı həm də ondadır ki, bu kətələr təndirdə odunla bişirilir. Digər tərəfdən, artıq bu gün şəhər sakinləri də muxtar respublikamızda yaz dövründə bitən hər hansı pencəri buradan tapa bilərlər. Qiymətləri də münasibdir.





Mən də ailəmlə birlikdə festivalın təşkilatçılarına minnətdarlığımı bildirirəm.

Naxçıvan Muxtar Respublikasında Avropa İttifaqının maliyyə dəstəyi ilə “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” adlı yeni layihənin icrası üçün Naxçıvana gələn qonaqlar da həm milli mətbəximizlə, həm də muxtar respublikamızdakı qadın ailə təsərrüfatlarının fəaliyyətləri ilə tanış olmaq üçün festivalda iştirak edirdilər.

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas*** təəssüratlarını bizimlə bölüşərək dedi: – Dördüncü dəfədir ki, Naxçıvana səfər edirəm. Bizi burada həmişə qonaqpərvərlik və sevinclə qarşılayırlar. Naxçıvana səfərimizin məqsədi Azərbaycan Mikromaliyyə Assosiasiyasının icra etdiyi yeni layihə ilə əlaqədardır. Layihə qadın sahibkarlara kömək məqsədi daşıyır. Bu, onların öz kiçik bizneslərini inkişaf etdirmələrinə səbəb olacaq, burada mövcud olan ənənəvi sənətkarlığın təbliğinə şərait yaradacaqdır.

İlk dəfədir ki, iştirak etdiyim “Kətə” festivalında da muxtar respublikanın müxtəlif rayonlarından və fərqli yaş qruplarından olan qadın ailə təsərrüfatçıları da diyarınızda qadınların sahibkarlığın inkişafında əhəmiyyətli rol oynadıqlarını bir daha təsdiq edirlər. Həyatımda ilk dəfədir ki, kətə yeyirəm, çox gözəl, özünəməxsus dadı var. “Kətə” festivalında tələbələrin təqdim etdiyi rəqs nümunələri də çox xoşuma gəldi.

***BMTİP-in Azərbaycandakı rezident nümayəndəsinin vəzifəsini icra edən Alessandro Frakassetti*** bildirdi ki, bu, mənim Naxçıvana ilk gəlişimdir. Şəhəriniz çox gözəl və təmizdir, insanlarınız isə qonaqpərvər. Burada keçirilən festival da çox möhtəşəmdir. Muxtar respublika gənclərinin də gülərüzlülüyü, yüksək əhval-ruhiyyəsi diqqətimi çəkdi. Keçirilən



fləşmobda gənclərin fəal iştirakı və milli musiqinin təbliğ olunması da təqdirəlayiq haldır. Burada kətənin necə bişirildiyinin şahidi oldum. Kətəni ilk dəfə yedim və çox xoşuma gəldi. Elə düşünürəm ki, dünyanın hansı ölkəsindən bura gəlib bu yeməkləri dadan olsa, mütləq bundan ləzzət alacaq. Mən burada olarkən şahidi oldum ki, kətənin bir çox növü var. Bu ləzzətli təamlardan sevə-sevə dadacağam.

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq bölməsinin rəhbəri Simona Gatti*** deyib ki, mən də ilk dəfədir, Naxçıvanda oluram. Çox şadam ki, bu səfər “Kətə” festivalı ilə üst-üstə düşübdür. Festival yüksək səviyyədə təşkil edilib. Mən də Azərbaycan xalqının qədim kulinariya mədəniyyətində mühüm yer tutan xəmir yeməklərindən biri olan kətənin hazırlanması və süfrəyə təqdim edilməsini gördüm, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxdım. İlk dəfə idi ki, kətə dadırdım. Onu deyim ki, çox ləzzətlidir, dadından doymaq olmur. Stendlərin birinə yaxınlaşıb soruşdum ki, bu kətəni belə ləzzətli edən nədir? Öyrəndim ki, onun içərisində minerallar və vitaminlərlə zəngin, insan orqanizmi üçün çox faydalı, Naxçıvanın gözəl təbiətinin bəhrəsi olan bitkilər – siz buna pencər deyirsiniz, – vardır.

Simona Gatti onu da qeyd edib ki, Naxçıvanda zəngin mətbəx ənənələri həssaslıqla qorunub yaşadılır. Bu həm də yüksək mədəniyyətin göstəricisidir. Digər tərəfdən, öyrəndik ki, bu il Naxçıvanda “Ailə təsərrüfatları ili”dir. Bu festivalda qadın sahibkarların üstünlük təşkil etməsi onu göstərir ki, muxtar respublikada nəinki kişi, həmçinin qadınlar üçün də əlverişli şərait yaradılıb. Onlar öz məhsullarını istehsal edib sata bilirlər. Bu həm də Naxçıvanın kənd yerlərində ailə əməyinə verilən dəyərin göstəricisidir. Əminliklə deyə bilərəm ki, qızımla birgə Naxçıvan səfərimiz çox yaddaqalan olacaq.

Festivala gələnlər arasında digər əcnəbi qonaqlar da az deyildi. ***Nigeriya vətəndaşı Emmanuel Olumuyiva*** festivalla bağlı təəssüratlarını bizimlə bölüşdü: – Naxçıvan mətbəxi çox zəngindir. Kətə haqqında onu deyə bilərəm ki, bu, çox dadlı bir yemək növüdür. Məlumatım var ki, bu kətələr Naxçıvanın dağlarında bitən təbii otlardan hazırlanır. Həmçinin kətə ilə birlikdə təqdim edilən dovğa bu əsrarəngiz ləzzəti tamamlayır. Bu festival Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğunu göstərir.

***Festivalda iştirak edən İran İslam Respublikasının vətəndaşı Gülçin Caviddostdan*** festivalla bağlı təəssüratlarını soruşduqda o bunları dedi:

– Naxçıvana ilk səfərim deyil. Rəssam olduğum üçün bir



neçə dəfə Naxçıvanda keçirilən festivallara dəvət almışam. Bu şəhərə hər səfərimdə onun daha da gözəlləşdiyinin şahidi oluram. Sanki bu şəhərə hər yeni gün rəssamın fırçasından yeni rənglər, gözəlliklər əlavə edilir. İştirak etdiyim “Kətə” festivalında ləziz təamların bişirilməsi qaydası ilə tanış oldum. Kətə haqqında onu deyə bilərəm ki, bu, çox dadlı bir yemək növüdür. İranda da belə ayaqüstü yemək növləri var. Ancaq kətədə xüsusi bir dad var. Digər tərəfdən, sizin mətbəx mədəniyyətiniz, süfrə təcrübəniz imkan verir ki, dadlı olanı daha ləzzətli şəkildə süfrəyə təqdim edəsiniz. Məlumat aldım ki, belə festivallar Naxçıvanda artıq ənənə halını alıb. Mən də çalışacağam ki, burada keçirilən festivallarda daha çox iştirak edim.

Xatırladaq ki, tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin, Mahnı və Rəqs Ansamblının bir-birindən maraqlı çıxışları iştirakçılara xoş ovqat bəxş edib. Həmçinin festival üçün ilk sayılan, Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında göstərilən “Yazın ritmi” adlı fləşmob həm yerli sakinlər, həm də xarici qonaqlar tərəfindən alqışlarla qarşılanıb. Bu fləşmob gözlənilməz Azərbaycan milli rəqsi ilə başlayıb. Fləşmobda nağarada ifa olunan Azərbaycan ritmləri tələbələrin rəqsi ilə ahəngdarlıq təşkil edirdi. Sonra tələbələr yallı gediblər.

Festivalda, həmçinin ağac üzərində oyma, xalçaçılıq, dulusçuluq, papaqçılıq nümunələri, duzdan, müxtəlif pencər




növlərindən hazırlanan əl işləri göstərilib.

Qeyd edək ki, 17 ictimai iaşə obyektinin və 183 fiziki şəxsin iştirak etdiyi festival bu gün başa çatacaq. Muxtar respublikanın Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, İqtisadiyyat, Kənd Təsərrüfatı, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, AMEA Naxçıvan Bölməsi, şəhər və rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə keçirilən festivalın sonunda “Ən dadlı kətə” nominasiyası üzrə müsabiqənin qalibləri elan ediləcək. Nümayiş olunan məhsullar görünüşünə, çeşid müxtəlifliyi və dadına görə münsiflər tərəfindən seçiləcək, festivalın qalibi, ikinci və üçüncü yerlərin sahibləri müəyyənləşəcək, onlara diplomlar təqdim olunacaq.

**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Pərviz HACILI**

# Naxçıvan Dövlət Universiteti muxtar respublikada ali təhsilin inkişafının əsas göstəricisidir

***Naxçıvan Azərbaycanın ən qədim yurd yerlərindən, ulu əcdadlarımızın müqəddəs ruhunu qoruyub saxlayan, Azərbaycançılıq üçün bütün atributların, maddi və mənəvi keyfiyyətlərin daşıyıcısı kimi şöhrət tapan məskənlərimizdən biridir. Çox qədim və zəngin maarifçilik ənənələrinə malik bu diyarda müasir dövrün tələblərinə cavab verə biləcək müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığı Naxçıvan Muxtar Respublikasının yaranması və inkişafının müxtəlif mərhələləri ilə bağlıdır. 1921-ci ildə Naxçıvanın muxtar diyar kimi Azərbaycanın tərkibində qalmasını təsdiqləyən beynəlxalq Moskva və Qars müqavilələri imzalandıqdan sonra burada mədəni həyatın dirçəlməsinə və təhsil sahəsində irəliləyişin, yenilik meyillərinin güclənməsinə zəmin yarandı. Muxtariyyətin ilk dövrlərində təsərrüfat, mədəniyyət və təhsil sahəsində işləyə biləcək kadrlar hazırlamaq məqsədilə orta ixtisas məktəbləri (texnikumlar) yaradıldı ki, bu təhsil müəssisələrinin məzunları bölgənin təsərrüfat, təhsil, sosial-mədəni həyatının fəal iştirakçısı oldular. XX əsrin 20-ci illərində Naxçıvan Pedaqoji Texnikumunun, Naxçıvan Pedaqoji Qız Məktəbinin və Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılmasını ali təhsilə gedən yolun başlanğıc mərhələsi kimi qiymətləndirmək olar. 1939-1956-cı illərdə Naxçıvan ikiillik Müəllimlər İnstitutunun fəaliyyət göstərməsini də muxtar respublikamızda ali təhsil strukturunun formalaşdırılmasının bünövrəsi hesab etmək olar. Bu təhsil müəssisəsi Naxçıvanın ümumtəhsil məktəblərinin müəllim kadrları ilə təmin edilməsində mühüm rol oynamışdır. Məktəbin məzunlarından bir çoxu sonralar müxtəlif elm sahələri üzrə tədqiqatçı-alim, şair və yazıçı, dövlət işçisi kimi tanınmışdır.***



Dövrün sosial və pedaqoji düşüncəsinə uyğun gələn ali təhsil müəssisəsinin əsası isə 1967-ci ildə ozamankı Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının açılışı ilə qoyuldu. ***“Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir”,*** – deyən ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk illərdən Naxçıvanda iqtisadiyyatın, mədəniyyətin, təhsilin inkişafına yüksək qayğı və diqqət göstərmişdir. 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyətə başlaması da məhz bu qayğının nəticəsi idi. Dahi siyasətçi özünün böyük uzaqgörənliklə həyata keçirdiyi bu maarifçi ideyası haqqında sonralar demişdir: ***“Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarıyam. Universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm… Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir”.***

29 dekabr 1990-cı ildən universitet statusu alan Naxçıvan Dövlət Pedaqoji İnstitutu həmin dövrdən etibarən yalnız pedaqoji kadr deyil, nəinki diyarımızın, həmçinin Azərbaycanın digər bölgələri üçün müxtəlif ixtisaslar üzrə mütəxəssis hazırlığına başlayır. Dərin bilikli, yüksək səviyyədə ixtisaslaşmış vətənpərvər mütəxəssislərin böyük bir dəstəsinin yetişməsi, nəinki Naxçıvan Dövlət Universitetinin, ümumən, Azərbaycan təhsilinin uğuru, nailiyyəti idi. Universitetin elmi potensialı artaraq daha da möhkəmlənir ki, bu da tədris-tərbiyə işlərinin günümüzün tələbləri səviyyəsində qurulmasına əsaslı təsir göstərirdi.

Buradakı elm-tədris, ixtisaslı kadr hazırlığı üzrə potensial həmin ali təhsil ocağına ölkə səviyyəsində rəğbətin yaranmasına, onun daha da inkişaf etməsi, nüfuzunun, şöhrətinin artması məqsədilə mühüm tədbirlərin reallaşdırılmasına stimul vermişdir. Universitetin 25, 30, 40, 50 illik yubileylərinin keçirilməsi ali təhsil müəssisəsinin ölkə üçün necə bir əhəmiyyətə malik olduğunu göstərir. Universitetin 25 və 30 illik yubiley tədbirlərində ulu öndər Heydər Əliyev şəxsən iştirak etmiş, universitetin regionun həyatında, ölkənin təhsil və elmi mühitində mövqeyini qiymətləndirməklə tövsiyələrini vermişdir: ***“Universitetin professor-müəllim heyətinə ali təhsilin, elmin, mədəniyyətin inkişafında yeni-yeni uğurlar arzulayıram. Universitetin tələbələrinə, gənclərinə cansağlığı, yüksək vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi-vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qorusunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 31 mart tarixdə “Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalaması, yubiley tədbirində şəxsən iştirak edərək qabaqcıl müəllimlərin bir qrupuna ölkənin ali mükafatlarını, orden və medallarını təqdim etməsi muxtar respublikamızda elm və təhsilin inkişafına göstərilən yüksək qayğının bariz təzahürüdür. Həmin sərəncamda deyilir: *“Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər”.*

Bu gün Naxçıvan Dövlət Universiteti ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarından biridir. Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturun qurulması, bir sözlə, yerləşdiyi relyefə uyğun özünəməxsus panoram gözəlliyinə malik “Universitet şəhərciyi”nin yaradılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun digər sahələrdə olduğu kimi, təhsilin inkişafında da ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətinin bəhrələridir. Bir-birindən gözəl tədris korpuslarının inşa edilməsi və ya yenidən qurulması, onların müasir tədris-təchizat vasitələri ilə təmin edilməsi sahəsində görülən işlər Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir. Məhz bu qayğı sayəsində universitetin Cənubi Koreya Respublikasının Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə “Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu” adlı layihəsi uğurla həyata keçirildi. Həmin layihə ilə muxtar respublikada elektron universitetə keçidin təməli qoyuldu.

Ölkəmizdə ali təhsilin dünya təhsil sisteminə, Avropa ali təhsil məkanına inteqrasiya olunması və Boloniya Bəyannaməsinin tələblərinə uyğunlaşma məqsədlərini həyata keçirmək üçün beynəlxalq təhsil prosesinə qoşulması Naxçıvan Dövlət Universitetində də müasir tədris şəraitinin yaradılmasına, elmin inkişafına xidmət edir. Geniş, işıqlı sinif otaqları, fənn kabinələri və muzeylər, elektron lövhələr mühazirələrin, seminar, laborator və təcrübi məşğələlərin müasir tələblər səviyyəsində qurulmasına imkan verən vasitələrdir.





Yüksək informasiya texnologiyalarına, əlverişli tədris şəraitinə, elmi potensiala, müasir tədris korpuslarına, maddi təchizat bazasına malik universitetin qazandığı nailiyyətlər ildən-ilə artır, daha da yeniləşir, zənginləşir. Bu ali məktəbin uğurları, nailiyyətləri həmişə dövlətimizin, dövlətçiliyimizin böyük simaları – rəhbərləri tərəfindən diqqətdə saxlanmışdır. Mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, müstəqillik dövrünün payına düşmüş universitetin 50 illik yubileyi də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamına əsasən böyük təntənə ilə, yüksək bayram əhval-ruhiyyəsi ilə keçirildi. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 oktyabr tarixli sərəncamları ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə və təhsilin inkişafındakı xidmətlərinə görə universitetin əməkdaşlarından 7-si “Tərəqqi” medalı, 8-i isə “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adı ilə təltif olundu. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 1 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi ilə əlaqədar olaraq muxtar respublikada təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə universitetin müəllimlərindən 16-sı “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi”, 1-i “Əməkdar mədəniyyət işçisi”, 1-i isə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adlarına layiq görüldü. Ali Məclisin Sədri tərəfindən fərqlənən 10 müəllim və 8 tələbəyə noutbuk, 24 tələbəyə isə planşet təqdim edildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri öz çıxışında Naxçıvan Dövlət Universitetinin 50 ildə qazandığı nailiyyətlərdən bəhs edərək göstərirdi ki, ***“Naxçıvan Dövlət Universitetinin ötən 50 ildə qazandığı təcrübə, elmi potensial və yaradılan tədris imkanları bizim sərvətimizdir”.***

2018-ci ildə ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində, həmin ali təhsil ocağının dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirmək məqsədilə distant təhsilin həyata keçirilməsinə başlanıldı. Yanvarın 17-də Distant Təhsil Mərkəzinin açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin mərkəzin istifadəyə verilməsini muxtar respublikanın həyatında əlamətdar hadisə kimi qiymətləndirmiş, Distant Təhsil Mərkəzinin fəaliyyəti ilə bağlı tövsiyələrini vermişdir.

Bu gün yaradılan şərait nəticəsində tələbələr istənilən ölkədən kompüter, mobil telefon və planşetlər vasitəsilə Naxçıvan Dövlət Universitetinin *ndu.edu.az* saytına müraciət etməklə Distant Təhsil Mərkəzinə qoşulmaq imkanına malikdirlər. Çoxfunksiyalı distant təhsil proqramında dərslər offlayn və onlayn rejimdə tədris olunur. Keçirilən dərslərin yaxşı mənimsənilməsi üçün elektron kitabxana portalı fəaliyyət göstərir.

Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan Dövlət Universiteti uğurlu tarixi inkişaf yolu keçib. 1967-ci ildə 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 6 minə yaxın tələbə təhsil alır. Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, 10 ixtisas üzrə doktorant, 32 ixtisas üzrə dissertant hazırlığı aparılır. 4 ixtisas üzrə distant təhsil həyata keçirilir. Universitetdə dissertasiya şurasının, həmçinin birləşmiş dissertasiya şurasının fəaliyyət göstərməsi də fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə tədqiqatçı alimlərin yetişməsində əhəmiyyətli rol oynayır. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülüb.

Universitetin tarixi inkişaf yolundan danışarkən beynəlxalq, o cümlədən elmi əməkdaşlığın inkişafı istiqamətində qazanılan uğurları vurğulamaq xüsusilə yerinə düşər. Asiya Universitetləri Cəmiyyətinin, Avropa Rektorlar Klubunun, Avrasiya Universitetlər Birliyinin (EURAS) üzvü olan, “Minilliyin universiteti” adını daşıyan bu ali təhsil ocağı bu gün dünya universitetləri ailəsinin layiqli üzvünə çevrilib. Son illər beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində görülən tədbirlərin nəticəsidir ki, hazırda universitetin dünyanın 50-dən çox ölkəsinin 80-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələri vardır. “Mövlana”, “Tempus”, “Erasmus+”, “Erasmus Mundus”, “Key Action” proqramlarının uğurlu icrası universitetin beynəlxalq arenada tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu ali təhsil ocağında tələbə mübadiləsinə də böyük əhəmiyyət verilir. Müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki bazanın və güclü kadr potensialının yaradılması xarici tələbələrin bu ali təhsil ocağına cəlb olunmasında başlıca amildir. Bu gün Naxçıvan Dövlət Universitetində dünyanın 8 ölkəsindən 500 tələbə təhsil alır. Sevindirici haldır ki, son iki ildə universitetə təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayında artım müşahidə olunur. Belə ki, bu il 252 əcnəbi tələbənin müxtəlif ixtisaslar üzrə hazırlıq kursuna qəbul olunması Naxçıvan Dövlət Universitetinin nüfuzunun dünyada artmaqda olduğunu bir daha təsdiq edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan “Startap Naxçıvan” hərəkatı isə Naxçıvan Dövlət Universitetində də müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət edəcək.

*Ali Məclisin Sədri cənab Vasif Talıbovun muxtar respublikada ali təhsilin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi məqsədilə verdiyi tövsiyə və tapşırıqlar Naxçıvan Dövlət Universitetinin gələcək inkişafı üçün rəhbər prinsiplərdir. Bu prinsiplər əsasında ali təhsil ocağında informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqinə səyləri gücləndirmək, elektron idarəetmə və tədris sistemindən yüksək səviyyədə fayda götürmək, kadr hazırlığında dövrün tələblərini nəzərə almaq qarşıda duran mühüm vəzifələrdir. Pedaqoji kollektiv bu məsuliyyətli vəzifələrin öhdəsindən gəlmək üçün fəaliyyətini bundan sonra da səylə davam etdirəcəkdir.*

**Saleh MƏHƏRRƏMOV**
***Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü***

*Culfa rayonunun təsərrüfat adamları cari ilin məhsulu üçün ötən ilin payızında 6399 hektar sahədə taxıl əkini aparıblar. Bunun da 5381 hektarı buğda, 1018 hektarı arpadır.*

## Yaz əkinləri sürətlə davam etdirilir



Torpağa daimi iş yeri və gəlir mənbəyi kim baxan bölgənin təsərrüfat adamları mart ayının ilk günlərindən başlayaraq qısa müddətdə 250 hektardan artıq sahədə yaz əkinləri üçün şum qaldırıblar.

İkinci çörək sayılan kartof əkini üçün rayonda geniş imkanlar vardır. Dizə, Gülüstan, Camaldın, Bənəniyar kəndlərində, ümumilikdə, 6 hektardan artıq sahədə kartof əkini aparılıb. Dağətəyi kəndlərdə isə əkinə hazırlıq işləri görülür. Camaldın, Ərəzin, Kırna, Bənəniyar kəndlərində 8,1 hektardan artıq sahədə noxud, Gülüstan və Bənəniyar kəndlərində isə 0,5 hektara yaxın sahədə sarımsaq əkilib.

Təsərrüfatçılar tərəfindən 36 hektardan artıq sahəyə yonca toxumu səpilib. Camaldın, Yaycı kəndlərində bu sahənin genişləndirilməsinə diqqət yetirilir.

Soğan əkini üçün daha çox əlverişli olan Yaycıda ailə təsərrüfatçıları 6,7 hektar sahədə səpin aparıblar.

Son zamanlar ailə təsərrüfatlarında meyvəçiliyin inkişafı sürətləndirilib və mart-aprel aylarında 5 hektara yaxın sahədə meyvə bağı salınıb. Ailə təsərrüfatlarında meyvəçiliyi genişləndirən təsərrüfatçı İlyas Məmmədov Gülüstan kəndində icarəyə götürdüyü 3 hektar bələdiyyə torpağında yerli şəraitə uyğun 1700 ting əkərək yeni meyvə bağı salıb. Natiq Məmmədov isə Camaldın kəndində 1,2 hektar sahəni bağ üçün ayırıb. Əbrəqunus kəndində də meyvəçiliyin inkişaf etdirilməsinə maraq artıb. Təsərrüfat adamı Əliqulu Əsgərov 0,5 hektar sahədə 300 ədəd meyvə tingi əkib. Kırna kənd sakini Fatma Əliyeva isə qızılgül əkininə üstünlük verir. O, ailə təsərrüfatında 0,2 hektar sahədə 350 ədəd qızılgül kolu əkini aparıb.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## "Naxçıvan" Universitetində sığorta fəaliyyətinə həsr olunmuş tədbir keçirilib

*Dünən "Naxçıvan" Universitetində sığorta fəaliyyəti və onun əhəmiyyəti barədə tədbir keçirilib. Giriş sözü ilə tədbiri açan ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev ictimai həyatın əksər sahələrində, o cümlədən iqtisadiyyatın inkişafında sığortanın rolundan, bu sahədə həyata keçirilən maarifləndirmənin əhəmiyyətindən danışıb.*



Sığorta münasibətlərinin tarixi təkamülü və sığorta işinin nəzəri-iqtisadi əsasları haqqında çıxış edən universitetin İqtisadiyyat kafedrasının dosenti Əli Cabbarov cəmiyyət həyatının müxtəlif sahələrində insanlara rast gələnən riskli halların yaratdığı maddi zərərlərin əvəzinin ödənilməsində sığortanın əhəmiyyətini qeyd edib. Tətbiq olunan sığorta növlərinin insanların sosial müdafiəsindəki rolunu vurğulayıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov sığortanı cəmiyyətin ümumi inkişafının nəticəsi kimi dəyərləndirib. O, muxtar respublikamızda sığorta işinin daha da inkişaf etdiriləərək onun kütləviliyinin təmin olunmasında aparılan maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, bu vacib sahənin inkişafı, vətəndaşların sığortaya olan marağının artırılması istiqamətində həyata keçirilən dövlət qayğısı öz bəhrəsini verib. Artıq Naxçıvan Muxtar Respublikasında 25-dən artıq sığorta növü üzrə vətəndaşlara xidmətlər göstərilir.

Bu gün muxtar respublikada həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyasının mühüm bir tərkib hissəsi qəfil riskli hadisələr zamanı insanlara dəymiş zərərlərin əvəzinin ödənilməsinə yönəlmiş etibarlı sığorta sisteminin yaradılmasıdır. Sığorta insanların əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə əsaslanan mühüm münasibətlər sistemi kimi daim inkişaf etdirilib təkmilləşdirilir.

Vurğulanıb ki, muxtar respublikada daşınmaz əmlakın, avtomobil nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin, habelə istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta genişləndikcə bu, əhali arasında sığorta ənənələrinin də dərinləşməsinə səbəb olur. Bundan başqa, muxtar respublikamızda əhalinin könüllü sığortanın müxtəlif növləri – fərdi qəza, əmlakın yanğın və digər risklərdən sığortalanması, avtonəqliyyat vasitələrinin tam sığortası və digər mühüm könüllü sığorta növlərinin əhali arasında geniş təbliğ olunması da öz bəhrəsini verməkdədir.

Qeyd olunub ki, gənclər və tələbələr də bu vacib sahənin əhəmiyyətini daha dərindən dərk edərək gələcək həyat və fəaliyyətlərində sığortaolunmaya ciddi yanaşmalı, bu sahədə fəal təbliğatçı olmalıdırlar.

**Xəbərlər şöbəsi**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Etibarnamə vermiş şəxs etibarnamənin müddəti bitmədən onu ləğv edə bilərmi?*

**Cavab:** Etibarnamə vermiş şəxsin istənilən vaxt həmin etibarnaməni ləğv etmək hüququ vardır. Çünki Azərbaycan Respublikası Mülki Məcəlləsinin 365.2-ci maddəsinə görə etibarnamə vermiş şəxs istənilən vaxt etibarnaməni və ya başqasına etibarətməni ləğv edə bilər, həmin sənəd verilmiş şəxs isə istənilən vaxt ondan imtina edə bilər. Bu halda, etibarnamənin qüvvəsinə xitam veriləcəkdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 366.1-ci maddəsinə görə etibarnamə vermiş və sonradan onu ləğv etmiş şəxs bu barədə etibarnamə verilmiş şəxsi, habelə etibarnaməni qarşılarında təmsil edilmək üçün verdiyi ona məlum üçüncü şəxsləri xəbərdar etməyə borcludur.

***Sual:** Məhkəmə işdə iştirak edən şəxsin xəbəri olmadan işə baxmış və qətnamə qəbul etmişsə, bu halda həmin şəxsin hansı hüquqları vardır?*

**Cavab:** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 357.1-ci maddəsinə görə Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan, həmin məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, tərəflər, üçüncü şəxslər, xüsusi icraat işlərində ərizəçilər və maraqlı şəxslər apellyasiya şikayəti verə bilər. Mülki Prosessual Məcəllənin 360-cı maddəsinə görə apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər. Göründüyü kimi, şəxs narazı qaldığı qətnamədən onun rəsmi qaydada verildiyi gündən 1 ay müddətində apellyasiya şikayəti verə bilər. Qeyd edək ki, apellyasiya şikayəti qətnaməni qəbul etmiş birinci instansiya məhkəməsinə təqdim edilir. Bundan əlavə, məhkəmə şəxsi lazımi qaydada xəbərdar etmədən işə baxmış və qətnamə qəbul etmişdirsə, bu hal məhkəmə tərəfindən prosessual normaların kobud pozuntusuna yol verildiyinə dəlalət edir. Mülki Prosessual Məcəlləsinin 387.2.2-ci maddəsinin tələbinə görə bu pozuntu məhkəmənin qətnaməsinin apellyasiya şikayətinin dəlillərindən asılı olmayaraq ləğv edilməsi üçün əsasdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Tibbi xidmətin səviyyəsi artıb



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini cari ilin birinci rübündə də davam etdirib. Dövlət proqramlarının icrası, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması işləri diqqətdə saxlanılıb.

2019-cu ilin ilk rübündə səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı nəzarətdə saxlanılıb, həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatı yaxşılaşıb. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, əhalinin yaşayış standartlarının davamlı yüksəlişi, güzəranının daha da yaxşılaşması, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər demoqrafik vəziyyətə də öz təsirini göstərib. Belə ki, 2019-cu ilin ilk rübündə muxtar respublikada 1000 uşaq doğulub.

Ötən dövrdə müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə cərrahi əməliyyatlar aparılıb. Həmçinin Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Babək Rayon Mərkəzi Xəstəxanasında, Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Sədərək Rayon Mərkəzi Xəstəxanasında əməliyyatlar aparıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhərinin təhsil müəssisələri işçilərində süd vəzinin profilaktik müayinəsi aparılıb.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya və dezinseksiya tədbirləri də diqqətdə saxlanılıb, hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirləri davam etdirilib, 148 tibb bacısı vaksinasiya olunmaq üçün hepatit B infeksiyasına qarşı müayinə olunub.

Həkim və orta tibb işçiləri Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilib, Naxçıvan Tibb Kollecində və səhiyyə müəssisələrində nəzəri və təcrübi biliklərə yiyələniblər.

Rüb ərzində "Tibb işçilərinin masaüstü kitabı", "Sağlam uşaqlara sağlam gələcəyə" kitablarının təqdimatı olub.

Əlillərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına və müxtəlif xəstəxanalara müalicəyə göndərişlər davam etdirilib.

2019-cu ilin ilk üç ayında 228 min 130 nəfər tibbi müayinə olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublika idmançıları 86 medal qazanıblar

Muxtar respublikamızda gənclərin məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, onların hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği 2019-cu ilin ötən üç ayında da diqqətdə saxlanılmışdır. Gənclərdə vətənpərvərlik tərbiyəsinin aşılanması məqsədilə film və tamaşalar nümayiş etdirilmiş, muzeylərə ekskursiyalar təşkil olunmuş, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Vətən naminə" hərbi idman oyunu, məktəblilər arasında "Şahin" hərbi idman oyununun rayon(şəhər) birincilikləri, 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında inşa yazı, şeir və rəsm müsabiqələri keçirilmişdir.

Həmçinin gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında gənc dövlət qulluqçuları, o cümlədən "Naxçıvan" Universitetinin və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Xəmsə", "Kim? Nə? Hara?", Culfa Sərhəd Komendatlığının əsgərləri arasında "Vətəni tanı", gənclər arasında "Axtar, tap", Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarında "Ağıllı uşaq" intellektual oyunları, "Poliqon" strateji intellekt oyunu üzrə "Universiada" təşkil olunmuş, yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının şəhər və rayon birincilikləri keçirilmişdir. Ötən dövrdə Ağbulaq İstirahət Mərkəzində "Qış məktəbi" təşkil olunmuş, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, "Görüş yeri" kafesində gənclərin iştirakı ilə müxtəlif tədbirlər, eləcə də sağlamlıq imkanları məhdud uşaqlarla "Birlik" adlı əyləncəli tədbir keçirilmişdir.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin *www.naxgin.az* saytı yenilənmiş, saytın Azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində fəaliyyət göstərməsi təmin edilmişdir. Hərbi xidmətdən tərxis olunmuş gənclərin peşə ixtisas kurslarına cəlb olunması istiqamətində işlər aparılmış, gənclərdə ətraf mühitə sevgi və qayğı hisslərinin yüksəldilməsi məqsədilə "Bir ovuc sevgi" devizi altında tədbir keçirilmiş, "Gənclər bağı"nda imeciliklər təşkil olunmuşdur.

Ötən dövrdə idman tədbirlərinin keçirilməsi də diqqətdə saxlanılmış, "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" və "Naxçıvan Muxtar Respublikası – 95" devizləri altında müxtəlif idman növləri üzrə muxtar respublika, Naxçıvan şəhər açıq birincilikləri, yoldaşlıq görüşləri keçirilmiş, ekstremal yürüş üzrə muxtar respublika açıq birinciliyi təşkil olunmuşdur. Bunlarla yanaşı, Naxçıvan Muxtar Respublika XVII Futbol Çempionatının II dövrə oyunları, Şahmat Mərkəzinin təsnifat turniri təşkil olunmuş, Şahmat Federasiyası ilə birlikdə Kəngərli Rayon Uşaq-Gənclər Şahmat Məktəbində müəllimlər, şahmatçılar və valideynlərlə görüş keçirilmişdir.

Keçirilən tədbirlərlə yanaşı, müxtəlif idman növləri üzrə Azərbaycan birinciliklərində və çempionatlarda, 10-cu "Bakı Open", 9-cu "Tbilisi Open" beynəlxalq turnirlərdə, eləcə də yeniyetmələr arasında cüdo üzrə Təbriz şəhərində keçirilən beynəlxalq turnirdə muxtar respublika idmançılarının iştirakı təmin edilmişdir. İdmançılarımız Azərbaycan birinciliklərində 46, beynəlxalq turnirdə 40 olmaqla, ümumilikdə, 86 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Cüdoçularımızın növbəti uğuru



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında cüdo üzrə keçirilən ölkə birinciliyinə yekun vurulub.

Birincilikdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da mübarizə aparıblar. 60 kiloqram çəki dərəcəsində tatamiyə çıxan Elşən Qasımov ikinci yerlə kifayətlənib. Rəşad Heydərov da eyni uğuru təkrarlayıb. O, buna 66 kiloqram çəki dərəcəsində müvəffəq olub. Digər idmançımız Xətai Qənbərov (66 kiloqram) isə iki rəqibini məğlub etdikdən sonra zədə ilə üzləşib və növbəti görüşdə tatamiyə çıxa bilməyib.

Qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 268